# "QƏLƏVİ METALLAR VƏ ONLARIN FİZİKİ-KİMYƏVİ XASSƏLƏRİ" MÖVZUSUNUN AUDİOVİZUAL VASİTƏLƏRDƏN İSTİFADƏ ETMƏKLƏ TƏDRİSİ TƏCRÜBƏSİNDƏN

**A.A.Ələsgərova**

*Qafqaz Universitetinin müəllimi*

Yeni informasiya texnologiyalarından eləcə də multimedia proqramlarından istifadə təlim-tədris prosesində müəllimlərə öz pedaqoji ideyalarını daha asan həyata keçirməyə imkan verir. Prinsip etibarilə, istənilən pedaqoji texnologiya informasiya xarakterlidir və tədris prosesində tədris keyfiyyətinin artırılması üçün istifadə olunur. Təcrübədə xüsusi texniki təlim vasitələri (multimedia proyektoru, interaktiv lövhə) kimi istifadə olunan bütün texnologiyalar informasiya texnologiyalari adlanır. Bu cür müasir şərtlər şagirdi daxil olan informasiyanı rahat qəbul, tədqiq, təhlil etməyə və uğurlu istifadəyə hazırlıyır.

Multimedia əsaslı tədris və ya audiovizual vasitələrdən istifadə ilə baglı tədris dərsin audio və vizual numayişi ilə materialın daha tez qavranılıb mənimsənildiyi metoddur. Multimedia vasitələrindən istifadə edilməsi ilə aparılan pedaqoji praktikanın nəticəsi aşkar göstərir ki, bu təlim- tədris prosesini yaxşılaşdırır.

"Qələvi metallar və onların fiziki - kimyəvi xassələri" mövzusunun izahı zamanı müəllimin audiovizual vasitələrdən istifadəsi dərsin səmərəliliyini artırır və müəllimin şərhini asanlaşdırır.

Əvvəlcə, müəllim şagirdlərin diqqətini cəmləmək üçün ilk sualı bu şəkildə verir:

O, gümüşü –ağ rənglidir
Bıçaqla kəsilə bilir
Havaya çıxdıqda tez oksidləşir
Kerosin içində saxlanılır
Yumşaq və yüngüldür
Daha əvvəl belə bir metala rast gəlmisinizmi?
Cavab: Litium

Daha sonra muəllim növbəti sualları verir: Litium hansı qrupa daxildir? Bu qrupa basqa hansı elementlər daxildir? Bu qrup necə adlanır?

Bundan sonra dərsin mövzusu artıq gizli qalmır. Dərsin planını şagirdlərə təqdim edirəm.

Dərsin planı:

1. Elementlərin dövri sistemdə yerləşməsi (qrup və dövrün nömrəsi) və

təbiətdə tapılması

2. Qələvi metal atomlarının elektron konfiqurasiyası
3. Fiziki xassələri
4. Kimyəvi xassələri
7. Tətbiqi

Dərsin planına uyğun olaraq, ilk əvvəl, qələvi metalların dövri cədvəldə mövqeyini slayd nömrəsiylə göstərirəm. Şəkildə 1-ci qrupun əsas yarımqrup elementləri olan qələvi metallar qırmızı çərçivəylə göstərilmişdir.




**Şəkil 1.**

Daha sonra qələvi metalların aktivliyinə diqqət çəkirəm. Şagirdlərə belə bir sualla müraciət edirəm

Qələvi metallar təbiətdə hansı şəkildə tapılır, sərbəst yoxsa birləşmələr şəklində?

Cavab: birləşmələr şəklində.

Bildirirəm ki, Na və K-un birləşmələri geniş yayılıb, digərlərinə isə nadir hallarda rast gəlinir. Fr süni yolla alınmışdır, radioaktivdir. Qələvi metalların rast gəlinən mineralları sonrakı slaydda göstərilmişdir.

$NaCl$ - daş duz (xörək duzu)

$Na_2SO_4 \cdot 10H_2O$ – Qlauber duzu

$Na_3AlF_6$ - kriolit

$NaCl \cdot KCl$ - silvinit

$KCl$ – silvin

Qələvi metallar olan Li, Na, K, Rb, Cs atomlarının quruluşundan aydın olur ki, qrup üzrə yuxarıdan aşağıya doğru getdikcə onların nüvələrinin yüklərinin artması ilə valent elektronlarının nüvə tərəfindən cəzb olunması zəifləyir.

| | |
|---|---|
| Litium | $1s^2$ $\mathbf{2s^1}$ |
| Natrium | $1s^2$ $2s^22p^6$ $\mathbf{3s^1}$ |
| Kalium | $1s^2$ $2s^22p^6$ $3s^23p^6$ $\mathbf{4s^1}$ |
| Rubidium | $1s^2$ $2s^22p^6$ $3s^23p^6$ $4s^23d^{10}4p^6$ $\mathbf{5s^1}$ |
| Sezium | $1s^2$ $2s^22p^6$ $3s^23p^6$ $4s^23d^{10}4p^6$ $5s^24d^{10}5p^6$ $\mathbf{6s^1}$ |
| Fransium | $1s^2$ $2s^22p^6$ $3s^23p^6$ $4s^23d^{10}4p^6$ $5s^24d^{10}5p^6$ $6s^24f^{14}5d^{10}6p^6$ $\mathbf{7s^1}$ |

**Şəkil 2.**

Qələvi metallar xarici elektron səviyyəsindəki elektron sayına müvafiq oksidləşmə dərəcəsi göstərirlər.

Audiovizual vasitələrdən istifadə edərək hər bir metalın elektron konfiqurasiyasının təsviri fərdi kompüterlə, yaxud multimedia proyektorunun köməyilə böyük ekranda göstərilir. Bu vaxt itkisinə yol vermədən mövzunun şagirdlər tərəfindən qavranılmasını asanlaşdırır.

Dərs planının sonrakı hissələrinin izahına keçirəm. Qələvi metalların fiziki xassələrini cədvəl şəklində göstərirəm.

**Cədvəl 1. Qələvi metalların fiziki xassələri**

| Metal | Elektron konfiqurasiyası | Ərimə, $^oC$ | Sıxlığı, $q/sm^3$ | Atom radiusu, Å | I, kC/mol |
|---|---|---|---|---|---|
| **Li** | [He] $2s^1$ | 181 | 0.53 | 1.52 | 520 |
| **Na** | [Ne] $3s^1$ | 98 | 0.97 | 1.86 | 496 |
| **K** | [Ar] $4s^1$ | 63 | 0.86 | 2.27 | 419 |
| **Rb** | [Kr] $5s^1$ | 39 | 1.53 | 2.47 | 403 |
| **Cs** | [Xe] $6s^1$ | 28 | 1.88 | 2.65 | 376 |

Atomların elektron quruluşundan görünür ki, litiumdan seziuma doğru getdikcə elementlərin energetik səviyyələrinin sayının artması ilə atom radiusu böyüyür. Atom radiusunun böyüməsi isə öz növbəsində xarici energetik səviyyədə olan elektronlar ilə nüvə arasındakı cazibə qüvvəsinin zəifləməsinə səbəb olur. Buna görə də elementlərin xarici energetik səviyydə olan valent elektronlarını verməsi asanlaşır və həmin sırada fəallıqlarının artmasına səbəb olur.

Görünən cədvəldən şagirdlər öz aralarında gəldikləri nəticələri müzakirə edirlər. Qələvi metallar yüngül (Li, Na, K sudan yüngüldür) yumşaq və asanəriyəndir. Li-dan Cs-a doğru getdikcə metalların bərkliyi və ərimə temperaturu ardıcıl olaraq zəifləyir.

Daha sonra qeyd edirəm ki, yüksək aktivliklərinə görə qələvi metallar ağ neftin(kerosinin) altında saxlanılır.

Sonrakı slaydda qələvi metalların kimyəvi xassələri göstərilmişdir. Qələvi

metallar aktiv metallardır. Qeyri-metalların hamısı ilə reaksiyaya daxil olur. Bundan başqa, su və turşularla reaksiyaya girirlər. Şagirdlərə göstərilən reaksiya tənlikləri növbəti slaydda tapşırıq şəklində verilir.

1. ? + ? =NaH,
2. ? + ? = NaCl,
3. ? + ? = $Na_2SO_4$ + $H_2$,
4. ? + ? = NaOH + $H_2$

Bərabərliklər şagirdlər tərəfindən həll olunduqdan sonra müəllim yoxlama aparır. Növbəti slayda keçməzdən əvvəl şagirdlərə belə bir sualla müraciət edir.

Sizcə bu metallar niyə qələvi metallar adlanır?

Cavab olaraq videofraqmentdən istifadə edirik.

İçərisində bir neçə damcı fenolftalein məhlulu əlavə edilmiş su olan iki şüşə kasaya növbə ilə neftdən çıxarılıb bıçaqla kəsilərək süzgəc kağzı ilə təmizlənmiş litium və natriumun kiçik parçaları salınır.



**Litium**



**$2Li + 2H_2O \rightarrow 2LiOH + H_2\uparrow$**



**Natrium**



**$2Na + 2H_2O \rightarrow 2NaOH + H_2\uparrow$**

**Şəkil 3.**

Daha sonra ekrana kalium, rubidium və seziumun su ilə qarşılıqlı təsirinə aid təcrübələrin görüntüləri gətirilir**.**



**$2K + 2H_2O \rightarrow 2KOH + H_2\uparrow$**



**$2Rb + 2H_2O \rightarrow 2RbOH + H_2\uparrow$**



**$2Cs + 2H_2O \rightarrow 2CsOH + H_2$**

**Şəkil 4**

Belə nəticəyə gəlinir ki, Lİ –Na – K – Rb – Cs istiqamətində elementlərin su ilə qarşılıqlı təsiri reaksiyası şiddətlənir. Belə ki, litiumun su ilə qarşılıqlı təsiri fəal olsa da alovun görünməməsi ilə, natriumunku alovlanmaqla, kaliumunku alovlanma və partlayışla, rubidiumunku güclü partlayışla, seziumunkuisə güclü partlayış və şüşə qabın sınması ilə müşaiət olunur.

Sonuncu slaydlarda "bunları bilirsinizmi" başlığı altında qələvi metallar haqqında maraqlı məlumatlar veririk.

Litium 1817-ci ildə isveçrə alimi İ.A.Arfvedson lipidolit mineralını analiz etdikdə kəşf etmişdir. Litium yunanca "litos" sözündən əmələ gəlmişdir və daş deməkdir. Onun sərbəst halda 1855-ci ildəbir-birindən aslı olmayaraq Alman kimyaçısı R.Bunzen və İngilis kimyaçısı O.Matissen almışlar.

Natrium və Kalium sərbəst halda 1807-ci ildə ingilis kimyaçısı H.Devi onların ərinmiş hidroksidlərinin elektrolizindən almışdır. Elementə verilən natrium adı müxtəlif dillərdə işlədilən "nitron" (yunan) və "natron" (ərəb) sözlərindən əmələ gəlmişdir.

Kalium ərəbcə "kili" sözü olub, bitki külü deməkdir.Rus dilində "kaliy" adlandırılması 1831-ci ildə Q.İ.Hess tərəfindən təklif edilmişdir.

Rubidium 1861-ci, sezium isə 1860-cı ildə spektral analiz vastəsi ilə R.Benzen və Q.Kirxhof tərəfindən kəsf edilmişdir. Adları onları xarakterizə edən spektr xətlərinin rənginin latınca adlarına görə verilmişdir. Bu xətlərin rəngi seziumda göy, rubidiumda isə qırmızıdır.

Fransium radioaktiv elementdir. O, 1939-cu ildə fransa kimyaçısı Marqarita Pere tərəfindən aktiniumun alinması zamanı kəşf edilmiş və ona "aktinium-K" adı verilmişdir. 1946-cı ildə Pee bu elementi öz vətəninin şərəfinə adlandırmışdır.

Mövzunun izahında audiovizual vasitələr 45 dəqiqəlik dərs müddətində qoyulan tələblərə tam əməl olunmasını təmin edir. «Qələvi metallar və onların fiziki-kimyəvi xassələri» dərsi slayd təqdimatı ilə dərsin planına uyğun ardıcıllıqla yerinə yetirilərək, videofraqmentlər vasitəsilə kimyəvi reaksiyalar ekranda göstərilmiş və bu şəkildə dərsin tam mənimsənilməsinə nail olunmuşdur.

## İstifadə edilmiş ədəbiyyat:

1.V.Abbasov, M.Abbasov, R.Əliyev, A.Əliyev, V.Əliyev, L.Ə liyev. Kimya Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik. «ASPOLİQRAF». Bakı 2013

2. http://bibliofond.ru/

3. Мария С.Пак. Теория и методика обучения химии. Изд-во.ПГПУ им. Герцена.2015

Алескерова А.А.

**Из опыта обучения темы “Щелочные металлы и их физико - химические свойства” с использованием аудиовизуальных средств**

## АННОТАЦИЯ

В статье дается методическая разработка по изучению темы «Щелочные металлы и их физико-химические свойства» в условиях применения аудиовизуальных средств обучения. Аудиовизуальные средства обучения являются эффективным источником повышения качества обучения. При этом на занятиях успешно реализуются дидактический принцип наглядности, возможность индивидуализации обучения и одновременно массового охвата обучающихся, усиливается мотивационная сторона занятий. Результат педагогической практики проведенной с использованием средств мультимедии ясно показывает что эти средства подготавливают школьников к получению и усваиванию информации. Рассказано об их положительном влиянии на весь процесс обучения.

Alasgarova A.A.

**From the experiment about teaching the topic “Alkali metals including their physical and chemical features” by means audiovisual stuff**

## SUMMARY

The article gives the methodical development on the study of theme of “Alkali metals and their physical and chemical properties ” under the condition of use of audiovisual stuff methods. Audio-visual teaching aids are an effective source of improving the quality of education.At the same time in the classroom successfully implemented didactic clarity principle, the possibility of individualization of learning and studying at the same time the mass coverage, enhanced motivational side sessions. The result of teaching practice carried out with the use of multimedia shows clearly that these funds are preparing students for the preparation and assimilation of information. It tells about their positive influence on the whole process of learning.

**Açar sözlər:** audiovizual vasitə, multimedia proyektoru, interaktiv lövhə, qələvi metal, daş duz, elektron konfiqurasiyası, atom radiusu

**Ключевые слова:** аудиовизуальные средства, мультимедийный проектор, интерактивная доска, щелочный металл, каменная соль, электронная конфигурация, атомный радиус

**Key words:** audiovisual stuff, multimedia projectors, smart bords, alkali metal, rock salt, electron configuration, atomic radius